Fortiori

Law Firm

# Qanunvericiliyə edilmiş son dəyişikliklərlə bağlı

# BÜLLETEN

Fortiori Hüquq Şirkəti cari ilin fevral və mart ayında qəbul edilmiş yeni qanunvericilik aktları, habelə mövcud aktlara edilmiş son dəyişiklikləri təqdim edir

*02-03.2023*

**FEVRAL**

**Yeni Qanunlar**

**“Hədəfli maliyyə sanksiyaları haqqında” Qanun**

Bu Qanun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir.

Qanunda “hədəfli maliyyə sanksiyalarına” anlayış verilmişdir:

Belə ki, sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınmasına yönələn qadağalar və ya həmin fiziki şəxslərin və qurumların aktivlərinin dondurulması tədbirləri hədəfli maloyyə sanksiyalarıdır.

Həmçinin, “Hədəfli Maliyyə Sanksiyaları və Onların Tətbiqi Qaydası”, “Ölkədaxili Siyahının Formalaşdırılması Qaydası”, “Beynəlxalq Siyahıların Formalaşdırılması Qaydası” və “Nəzarət Tədbirləri” bu Qanunla tənzimlənir.

Bu Qanun “1 fevral 2023-cü il tarixdə qüvvəyə minmişdir.

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanun**

Bu Qanun cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarını istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Yeni Qanunla öhdəlik daşıyan şəxsləri dairəsi genişləndirilmişdir, bu Qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirmək öhdəliyi yalnızca maliyyə institutları daşımır, eləcə də qeyri-maliyyə institutları və peşə sahiblərinə də tətbiq olunur.

Qanunla qeyri-maliyyə institutları və peşə sahibləri dedikdə, rieltorlar, vəkillər, notariuslar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri nəzərdə tutulur.

Bu Qanun 1 fevral 2023-cü il tarixdə qüvvəyə minmişdir.

Fortiori.
Law Firm

**Qanunvericiliyə dəyişikliklər və əlavələr**

**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Qanun**

Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar *2024-cü il yanvarın 1-dək* dayandırılır.

**Mənzil Məcəlləsi**

Əlavəyə əsasən, mənzil-tikinti kooperativinin üzvünün payının özgəninkiləşdirilməsi ilə əlaqədar bağlanan əqdlər notariat qaydasında təsdiqlənməlidir.

Bu dəyişiklik 1 fevral 2023-cü il tarixdən qüvvəyə minir

**“Nağdsız hesablaşmalar haqqında” Qanun**

**Əlavə edilir:**

**Nağdsız qaydada həyata keçirilən hesablaşmalara dair əlavəyə əsasən, aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir:**

..

“1. Daşınmaz əmlakın alqı-satqısı üzrə, mənzil-tikinti kooperativinin üzvünün pay haqqı üzrə və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən yaşayış və qeyri-yaşayış sahələrinin alınması ilə bağlı həyata keçirilən ödənişlər;

2. Qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər;

3. Rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər.”

..

Bu Dəyişiklik (Əlavə) 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Mülki Prosessual Məcəllə**

**10-2-ci maddəyə edilmiş əlavəyə əsasən,** müvafiq olaraq qapalı məhkəmə iclasında baxılmalı olan işlərdə videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılmasına yol verilmir.

**İnzibati Prosessual Məcəllə**

Dəyişikliklərə əsasən, İnzibati məhkəmə icraatının ərizəçinin seçimi əsasında elektron qaydada aparılması ilə bağlı müddəa daxil edilmiş və 9-1-ci maddənin tərkibində müvafiq olaraq bu icraatın aparılması üçün qaydalar tənzimlənmişdir. Eyni zamanda inzibati məhkəmə icraatının videokonfrans əlaqə sistemi vasitəsilə aparılması ilə bağlı yeni 9-2-ci maddə əlavə edilmiş və və şifahi məhkəmə baxışı ilə əlaqəli digər prosessual qaydalara bu əlavələrdən irəli gələn dəyişikliklər edilmişdir.

Bu dəyişikıiklər və əlavələr 7 fevral 2023-cü il tarixdən qüvvəyə minir.

"Sığorta fəaliyyəti haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Banklar haqqında", "Sosial xidmət haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Torpaq icarəsi haqqında", "Seleksiya nailiyyətləri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Yol hərəkəti haqqında", "Lisenziyalar və icazələr haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "İnvestisiya fondları haqqında", "Avtomobil yolları haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Maliyyə-sənaye qrupları haqqında", "Dövlət borcu haqqında", "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Lotereyalar haqqında", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında", "Valyuta tənzimi haqqında", "İpoteka haqqında", "Sosial müavinətlər haqqında", "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Pasportlar haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İnzibati icraat haqqında" qanunlarda, "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə"də, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də, "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə"də, Mənzil Məcəlləsində, Vergi Məcəlləsində, Miqrasiya Məcəlləsində, Ailə Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində eyni məzmunlu dəyişiklik edilmişdir.

Belə ki, dəyişikliyə görə adıçəkiən normativ aktlarda bir sıra maddələrdə ***nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.***

**"Dövlət vergi orqanlarında kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi" Qaydaları** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən 27 fevral 2023-cü il tarixdə təsdiq edilmişdir.

Fortiori.
Law Firm

**MART**

**“Dövlət Rüsumu haqqında” qanun**

**Aşağıdakı hərəkətlər üçün dövlət rüsumu tutulmur:**

24.1.2. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda ödəniş haqqı:

24.1.2.1. yük avtomobilləri üçün

24.1.2.2. sərnişin avtobusları üçün

24.1.3. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün:

24.1.3.1. yük avtomobilləri üçün

24.1.3.2. sərnişin avtobusları üçün

24.2. Xarici dövlətlərdə qeydiyyatda olanavtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə.

24.3. Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün.

24.4. Xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün:

24.4.1. yük avtonəqliyyat vasitələrinin yüksüz daxil olması üçün;

24.4.2. avtobusların sərnişinsiz daxil olması üçün.

24.5. İri tonnajlı xarici dövlətlərdə qeydiyyatda olan yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinə daxil olması üçün

24.6. Dövlətlərarası sazişləri pozan xarici avtomobil daşıyıcıları Azərbaycan Respublikası ərazisindən çıxdıqda.

Bu Qanun 2023-cü il martın 1-dən qüvvəyə minir.

**Əmək Məcəlləsi**

Məcəllənin 220-ci maddəsinə edilmiş əlavəyə əsasən, əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı işçilərin heç bir xərc çəkməməsi ilə bağlı yeni müddəa təsbit edilmişdir.

**Vergi Məcəlləsi**

Edilmiş ən son əlavəyə əsasən, audiovizual subyektlər (televiziya və radio qurumları) istisna olmaqla bütün digər media subyektləri 2023-cü il 1 yanvar tarixindən 3 il müddətinə vergidən azad hesab edilirlər.